# Borel öz davranışları ilə xristian səlibçilərini xatırladır



İnsan Hüquqları üzrə 25-ci Avropa İttifaqı-QHT Forumundakı çıxışında guya güc tətbiqi nəticəsində 150 min erməninin öz evlərini tərk etməsi ilə bağlı fikir bildirən Avropa İttifaqı Komissiyasının vitse-prezidenti Cozep Borel reallığı tamamilə təhrif edib. Borel ölkəmizə qarşı açıq qərəzini ortaya qoymaqla bu qurumun vasitəçilik səylərinə də xələl gətirib. Miqrasiya etmiş erməni sakinlərin güclə qovulduğunun iddia olunması və onların sayının qəsdən şişirdilməsi həm də Ermənistanın etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində öz evlərindən didərgin düşmüş yüz minlərlə azərbaycanlının hüquqlarına hörmətsizlikdir.

Bu barədə "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, Cozep Borel davranışları ilə səlib yürüşlərinin başında duran Papa Urban və 7-ci Qriqorinin əlaltısı kardinal Şatilona bənzəyir. Cozep Borel öz fikri olmayan, bəlli mərkəzlərin diktəsi ilə hərəkət edən biridir. Borelin İnsan Hüquqları üzrə 25-ci Avropa İttifaqı-QHT Forumundakı çıxışında Azərbaycanın hərbi müdaxiləsi nəticəsində Ermənistan-Azərbaycan münaqişəsinin aqibətinin müəyyən edildiyi, güc tətbiqi nəticəsində 150 min insanın öz evlərini tərk etməsi, həmçinin münaqişələrin güc yolu ilə həllinin qadağan olunduğu ilə bağlı səsləndikləri bu adamın nə qədər məsuliyyətsiz və yalançı olduğunu ortaya qoyur.

Deputat qeyd edib ki, guya etnik təmizləməyə məruz qalan hayların sayının 150 minə çatması ortalığa atılan yeni yalandır: "Nəzərə almaq lazımdır ki, haylar Qarabağda 120 min təmsilçilərinin yaşadığını desələr də, oranı tərk edəndən sonra saylarını 100 minə endirmişdilər. İndi isə uydurma soyqırımı qurbanlarının sayını ilk dəfə 200 min, sonra 300 min, 500 min, daha sonra isə 1 milyon və yekunda 1,5 milyona qaldırdıqları kimi, Qarabağdan gedənlərin də sayını 150 minə "çatdırıb"lar. Cozep Borel bu uydurma statistikanı təkrarlamaqla haylardan çox haylıq edir. Həmçinin təmsil etdiyi və yüksək vəzifə tutduğu Avropa İttifaqının da get-gedə fransalaşdığını sübut edir. Lakin bu, heç də Fransanın təsiri altında baş vermir. Fransa və onun başında duran Makronun potensialı göz önündədir, yəni rəsmi Parisin Avropa Birliyi üzərində təsiri, demək olar ki, yoxdur. Dünyada hazırda Papa Urban funksiyasını kimin yerinə yetirdiyi heç kimə sirr deyil. Borelkimilər də həmin mənbələrdən gələn təlimatlar əsasında hərəkət edirlər".

Sahib Alıyev xatırladıb ki, bu günlərdə İtaliya xarici işlər nazirinin müavini Edmondo Çirelli də vurğulayıb ki, Qərbdə din faktorundan faydalanaraq hay millətçiliyini qızışdırmağa, onları revanşizmə həvəsləndirməyə çalışanlar var: "Qafqaz məsələləri ilə məşğul olan və bu regionu yaxşı tanıyan cənab Çirelli onu da qeyd edib ki, Azərbaycan müsəlman ölkələri içərisində ən sivil və ən tolerant dövlətdir. O, Ermənistan torpaqlarını işğal etməyib, belə bir fikri yoxdur, hayların Qarabağı tərk etmələri də Azərbaycanın təzyiqi ilə baş verməyib. Yəni Borel də, elə ona Azərbaycan əleyhinə danışmaq tapşırığını verənlər də bu reallığı heç də İtaliyanın xarici işlər nazirinin müavinindən az bilmirlər".

Deputat vurğulayıb ki, bəzi xarici qüvvələri qıcıqlandıran əsas səbəb böyük dövlətlərdən sayılmayan, həm də müsəlman ölkəsi hesab edilən Azərbaycanın yırtıcı güclərin təhdidlərinə rəğmən torpaqlarını işğaldan qurtarması, suverenliyini tam təmin etməsi və yalnız milli maraqlarına dayanan siyasət yürütməsidir. Bu, onların ambisiyalarına, indiki beynəlxalq konyukturaya qətiyyən uyğun gəlməyən presidentdir. Yırtıcı dövlətlərin, onların diktəsi ilə hərəkət edən Borelkimilərin bizə qarşı düşmən münasibəti sərgiləmələrinin arxasında duran reallıq bundan ibarətdir.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 7 dekabr, № 267.- S.11.